**Abbaszade N.M.**♦

**DOI: 10.25108/2304-1730-1749.iolr.2019.58.8-30**

# The legal basis of foreigners and non-citizens' entering and leaving the Republic of Azerbaijan

**Abstract**: It is analysed the legal basis of foreigners and non-citizens' entering andleaving the Republic of Azerbaijan in accordance with the National Legislation, moreover, the restrictions on those persons. In addition, according to the existing deficiencies and shortcomings of foreigners and non-citizens' entering and leaving the country are given the scientific proposals.

It is compared the law norms about the entering and leaving of foreigners and non-citizens, researching the National legislation and the legislation of Russian Federation. By analyzing the results of comparison, some recommendations were provided.

According to the investigation, it can be considered that the foreigners and non-citizens' rights provided by the National legislation are totally related to the International law norms.

**Keywords**: foreigners and non-citizens; entering and leaving the Republic of Azerbaijan; passport; border-crossing document.

Bəşər tarixinin inkişafında çox mühüm rol oynayan miqrasiya prosesləri hər bir ölkənin üzləşdiyi çoxşaxəli, mürəkkəb hadisə kimi olduqca mühüm elmi aspektlərə malikdir. Bu problemin nəzəri metodoloji təhlili, anlayışın verilməsi tələb olunan ilk məsələlərdəndir. "Miqrasiya" termininin mahiyyəti və təkamülünün müəyyənləşdirilməsi, tipoloji təsnifat məsələlərinə yaxından bələd

♦**Abbaszade Nigar Mutellim qızı** – Senior Research Fellow of the Department of "Foreigners' rights and migration" of the Institute of Law and Human Rights of the Azerbaijan National Academy of Sciences, the dissertator of Sumgayıt State University (Azerbajan). E-mail: abbaszade1988@gmail.com

olmağı gündəmə gətirir. "Miqrasiya" (migratio) latın mənşəli söz olub, köçürmə kimi 2 məna kəsb edir: 1-ci halda əhalinin ölkə daxilindən köçürülməsi və ya əhalinin yerləşdirilməsi. Buna daxili miqrasiya deyilir. 2-ci halda bir ölkənin ərazisindən digər ölkənin ərazisinə köçürülmə isə əhalinin xarici miqrasiyası adlanır. Buna emiqrasiya və ya immiqrasiya deyilir [1, s. 129].

Azərbaycan Respublikasında aparılan uğurlu siyasi və iqtisadi islahatlar nəticəsində bu gün respublikamız qloballaşan dünyada gedən siyasi proseslər fonunda özünəməxsus yerini tutmuş, getdikcə güclü mövqə qazanaraq, qarşılıqlı əməkdaşlığa nail olmuşdur. Bunun bariz nümunəsidir ki, hazırda dünyaya inteqrasiya edən Azərbaycan Respublikası timsalında sivil dövlət yaranmış və onun əsas meyarı olan insan hüquq və azadlıqlarına hörmət edən azad və yeni cəmiyyət formalaşmışdır. Son illərdə ölkənin iqtisadiyyatının dinamik şəkildə inkişafı, davamlı olaraq keçirilən dünya səviyyəli idman oyunları Azərbaycan Respublikasına çoxlu sayda turistlərin gəlməsinə səbəb olmuşdur. Bununla bağlı olaraq, ölkəmizə gələn əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin sayı ildən ilə artmış, yəni miqrasiya axınları son dərəcə sürətlənmişdir.

Qeyd etmək lazımdır ki, ölkəmizə gələn əcnəbilərin və vətəndaşlığı olamayan şəxslərin hüquqları Azərbaycan Respublikasının Konstitusiyası, Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə tənzimlənir. Yuxarıda sadalananlara istinadən qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının Konstitusiyasının 69-cu maddəsinə əsasən əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasında olarkən, qanunla və ya Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilə ilə başqa hal nəzərdə tutulmayıbsa, Azərbaycan Respublikasının vətəndaşları ilə bərabər bütün hüquqlardan istifadə edə bilər və bütün vəzifələri yerinə yetirməlidirlər. Azərbaycan Respublikası ərazisində daimi yaşayan və ya müvəqqəti qalan əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin

hüquq və azadlıqları yalnız beynəlxalq hüquq normalarına və Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq məhdudlaşdırıla bilər [2, s. 22-23].

Fikrimizcə, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquq və azadlıqlarının həyata keçirilməsi Azərbaycan Respublikasının milli mənafeyinə zidd olmamalıdır. Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasının Konstitusiyasının və Azərbaycan Respublikasının qanunlarının tələblərinə riayət etməli, Azərbaycan xalqının adət və ənənələrinə hörmət etməlidirlər.

Qeyd edilən hallara baxmayaraq, Azərbaycan Respublikasına gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan xalqının adət və ənənələrinə hörmət etmələri, hörmət etmədiyi təqdirdə həmin şəxslər barəsində hüquqi tədbirlər görülməsinə dair Azərbaycan Respublikasının normativ hüququ aktlarında heç bir müddəa yoxdur. Fikrimizcə, bu sahədə milli qanunvericilikdə boşluqlar vardır. Bu boşluqların aradan qaldırılması üçün İnzibati Xətalar Məcəlləsinə Azərbaycan Respublikasına gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan xalqının adət və ənənələrinə hörmət etmələri, hörmət etmədikləri təqdirdə həmin şəxslərə inzibati tənbeh tədbirlərinin tətbiq edilməsi barədə normaların əlavə olunması məqsədə müvafiq hesab edilsin.

Əvvəllər əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasına gəlmələri və Azərbaycan Respublikasından getmələri “Ölkədən getmək, ölkəyə gəlmək və pasportlar” haqqında Azərbaycan Respublikasının 14 iyun 1994-cü il tarixli 813 nömrəli Qanunu ilə tənzimlənirdi. Hazırda isə bu məsələ Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi ilə tənzimlənir. Bu Qanunun həmin Məcəlləyə uyğunlaşdırılması məqsədi ilə “Ölkədən getmək, ölkəyə gəlmək və pasportlar” haqqında Qanununa dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının 17 oktyabr 2014-cü il tarixli 1055-IVQD nömrəli Qanunu qəbul edilmişdir. Dəyişikliyə əsasən, “Ölkədən getmək, ölkəyə gəlmək və pasportlar” haqqında Qanunun adı dəyişdirilərək “Pasportlar” haqqında Qanun

adlandırılmışdır. Yeni Qanun yalnız Azərbaycan Respublikasının vətəndaşının ölkədən getmək, ölkəyə gəlmək hüququna təminat verir və bu hüquqdan azad şəkildə istifadə etmək üçün Azərbaycan Respublikasının vətəndaşının pasportunun tətbiqini nəzərdə tutur [10, s. 1].

Miqrasiya Qanunvericiliyində miqrasiya proseslərinin iştirakçılarına bir sıra anlayışlar verilmişdir. Belə ki, Miqrasiya Məcəlləsinin 3.0.1-ci maddəsinə əsasən "əcnəbi" dedikdə Azərbaycan Respublikasının vətəndaşı olmayan və başqa dövlətin vətəndaşlığına mənsub olan şəxs, "vətəndaşlığı olmayan şəxs" dedikdə isə heç bir dövlət tərəfindən onun qanununa əsasən vətəndaş hesab edilməyən şəxs başa düşülür [3, s. 11-12].

Belə ki, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasına Miqrasiya Məcəlləsinin 15-ci maddəsində nəzərdə tutulan qaydada gələ və ölkədən gedə bilərlər. Həmin Məcəllənin 15-ci maddəsinə əsasən əcnəbilər və vətəndaşlığı olmayan şəxslər dövlət sərhədinin buraxılış məntəqələrindən keçmək şərti ilə, pasportları və ya digər sərhədkeçmə sənədləri əsasında Azərbaycan Respublikasına gələ və Azərbaycan Respublikasından gedə bilərlər.

Azərbaycan Respublikasına gəlmək üçün viza tələb olunduğu hallarda əcnəbilər və vətəndaşlığı olmayan şəxslər bu Məcəllə ilə müəyyən olunmuş qaydada viza almalıdırlar. Xarici dövlətlərlə müvafiq beynəlxalq müqavilələr bağlanmış olduğu hallarda, habelə Azərbaycan Respublikasının Prezidenti tərəfindən müəyyən edilmiş hallarda əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasına vizasız gələ bilərlər. Azərbaycan Respublikasında müvəqqəti və ya daimi yaşamaq üçün icazə almış əcnəbilər və vətəndaşlığı olmayan şəxslər pasportları və ya digər sərhədkeçmə sənədləri və Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti tərəfindən verilmiş müvəqqəti və ya daimi yaşamaq üçün icazə vəsiqələri əsasında Azərbaycan Respublikasından gedə və viza almadan Azərbaycan Respublikasına qayıda bilərlər.

Həmçinin, Miqrasiya Qanunvericiliyində əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə yol sənədinin verilməsi ilə bağlı müddəalarda öz əksini tapmışdır. Belə ki, Miqrasiya Məcələsinin 15.5-ci və 15.6-cı maddələrinə əsasən Azərbaycan Respublikasında qaçqın statusu almış əcnəbilər və vətəndaşlığı olmayan şəxslər onlara Azərbaycan Respublikasının hüdudlarından kənara getmək üçün verilən "Yol sənədi" əsasında Azərbaycan Respublikasından gedə və viza almadan Azərbaycan Respublikasına gələ bilərlər. Azərbaycan Respublikasının hüdudlarından kənara çıxarılan və sərhədkeçmə sənədləri olmayan əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasının beynəlxalq müqavilələrində nəzərdə tutulmuş hallarda, habelə həmin şəxslər üçün mənşə ölkələrindən sərhədkeçmə sənədləri əldə etmək mümkün olmadığı hallarda verilən səyahət sənədi onların ölkə hüdudlarından kənara çıxması üçün əsasdır [3, s. 23-24].

Bundan başqa, Miqrasiya Məcəlləsinin 16-cı maddəsi ilə əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasına gəlişi ilə bağlı qadağa və məhdudiyyətlər qoyula bilər. Həmin qadağalar aşağıdakılardır : milli təhlükəsizlik və ya ictimai asayişin mühafizəsi, yaxud Azərbaycan Respublikası vətəndaşlarının və digər şəxslərin hüquqlarının və qanuni mənafelərinin qorunması bunu tələb etdikdə; şəxsin sülh və insanlıq əleyhinə, terrorçuluq, terrorçuluğu maliyyələşdirmə və müharibə cinayətləri törətməsi və ya transmilli mütəşəkkil cinayətkar dəstənin üzvü olması barədə məlumat olduqda; şəxs Azərbaycan Respublikasının vətəndaşlarına və ya Azərbaycan Respublikasının maraqlarına qarşı cinayət törətdiyinə görə məhkum olunduqda, əgər məhkumluğu qanunla müəyyən edilmiş qaydada ödənilməmişdirsə və ya götürülməmişdirsə; şəxs əvvəllər Azərbaycan Respublikasının hüdudlarından kənara çıxarıldıqda, əgər ölkəyə girişinə qoyulmuş məhdudiyyət müddəti bitməmişdirsə; şəxsin Azərbaycan Respublikasında olması arzuolunmaz hesab edildikdə; şəxs əvvəllər Azərbaycan Respublikasında olarkən ölkəyə gəlişinin bəyan edilmiş məqsədlərini pozduqda və

şəxs miqrasiya qanunvericiliyini pozduğuna görə son üç il ərzində iki dəfə və ya daha çox inzibati məsuliyyətə cəlb olunduqda (bu halda əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasına gəlişinə 5 il müddətinə qadağa qoyulur.); şəxs Azərbaycan Respublikasına gəlməsi haqqında vəsatət qaldırarkən, özü və ya səfərinin məqsədi haqqında yalan məlumat verdikdə [3, s. 25].

Qeyd etmək lazımdır ki, Miqrasiya Məcəlləsinin 16.1.2-ci maddəsində şəxsin sülh və insanlıq əleyhinə, terrorçuluq, terrorçuluğu maliyyələşdirmə və müharibə cinayətlərini törətdiyi halda Azərbaycan Respublikasına gəlmələrinin qadağan olunacağı göstərilmişdir. Lakin nəzərə çatdırmaq lazımdır ki, sadalanan cinayətlərdən başqa "təcavüz" və "genosid" cinayətləri də beynəlxalq konvensiyalarda ən ağır cinayətlər hesab olunur. Buna misal olaraq, 1951-ci ildə qüvvəyə minmiş "Genosid cinayətinin qarşısının alınması və cəzalandırılması" haqqında Konvensiyanı, BMT Baş Assambleyasının 14 dekabr 1974-cü il tarixli Qətnaməsini və Nürnberq Tribunalının Nizamnaməsini göstərmək olar. Yuxarıda sadalanan halları əsas götürərək təklif edirik ki, Miqrasiya Məcəlləsinin 16.1.2-ci maddəsinə "təcavüz və genosid cinayətləri" sözlərinin əlavə edilməsi məqsədə müvafiq hesab edilsin.

Onu da qeyd etmək lazımdır ki, Miqrasiya Məcəlləsinin 16.1.2-ci maddəsində əcnəbilərin və ya vətəndaşlığı olmayan şəxslərin yalnız terrorçuluq və terrorçuluğu maliyyələşdirmə cinayətlərinin törədilməsi ilə bağlı məlumat olduğu halda Azərbaycan Respublikasına gəlmələri qadağan edilmişdir. Müqayisə aparmaq üçün qeyd etmək lazımdır ki, "Rusiya Federasiyasına gəlmə və Rusiya Federasiyasından getmə qaydaları" haqqında 15 avqust 1996-cı il tarixli N114-FZ nömrəli Qanunun 26.10-cu maddəsinə əsasən terrorizmin maliyyələşdirilməsinə qarşı məsuliyyət daşıyan idarələrarası koordinasiya qurumunun əcnəbilərin və ya vətəndaşlığı olmayan şəxslərin pul və ya digər əmlakını dondurmaq qərarı və ya bank hesabının dayandırılması haqqında məhkəmənin qərarı olduqda əcnəbilərin və ya vətəndaşlığı olmayan şəxslərin pul vəsaitləri və ya digər əmlakı ilə bağlı

əməliyyatların aparılmasına dair müvafiq qərar ləğv olunana qədər əcnəbilərin və ya vətəndaşlığı olmayan şəxslərin Rusiya Federasiyasına gəlmələri qadağan edilir [10].

Rusiya Federasiyasının milli qanunvericiliyi ilə apardığımız müqayisədən belə nəticəyə gəlmək olar ki, Miqrasiya Məcəlləsinin 16-cı maddəsinin dispozisiyasına əcnəbilər və vətəndaşlığı olmayan şəxslər terrorçuluq və ya terrorçuluğu maliyyələşdirmə cinayətlərini törətdikləri halda onların pul vəsaitləri və ya digər əmlakı ilə bağlı bank əməliyyatlarının aparılmasının dondurulmasına dair məhkəmənin müvafiq qərarı ləğv edilənədək Azərbaycan Respublikasına gəlmələrinin qadağan edilməsi ilə bağlı müddəanın əlavə olunması daha məqsədə müvafiqdir.

Müasir texnoloji inkişaf mərhələsində Azərbaycan Respublikası vətəndaşlarının, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin ölkədən getməsi və ölkəyə gəlməsi sahəsində göstərilən xidmətlərin təkmilləşdirilməsi üçün elektron informasiya resurslarının formalaşdırılması, uzlaşdırılması və inkişaf etdirilməsi zəruridir. Bu sahədə aidiyyəti dövlət orqanları və qurumlarının səmərəli fəaliyyətinin təşkil edilməsi, onların informasiya təminatı, sənədləşmə, yoxlama, sorğu və təhlil işlərinin avtomatlaşdırılması prosesinin, qarşılıqlı informasiya mübadiləsinin və informasiya təhlükəsizliyinin təmin edilməsi, "Giriş-çıxış və qeydiyyat" idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sisteminin təşkilati-hüquqi əsaslarının müəyyən edilməsi məqsədilə “Giriş-çıxış və qeydiyyat idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sistemi” haqqında Azərbaycan Respublikasının Prezidentinin 22 aprel 2008-ci il tarixli Fərmanı qəbul olunmuşdur [7]. Bununla bağlı Miqrasiya Məcəlləsinin 16.3-cü maddəsində belə bir müddəa vardır ki, əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasına gəlişi ilə bağlı qoyulan qadağalar haqqında məlumatlar müəyyən olunmuş qaydada “Giriş-çıxış və qeydiyyat” idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış

sisteminin məhdudiyyət siyahılarına daxil edilməli və müvafiq əsaslar aradan qalxdıqda məlumatların aktiv statusu dəyişdirilməlidir [3, s. 25-26].

Təcrübəyə əsaslanaraq bildiririk ki, Miqrasiya qanunvericiliyinin tələblərini pozaraq pasportsuz, vizasız və ya etibarli olmayan digər sənədlərlə Azərbaycan Respublikasının dövlət sərhədlərini keçməyə cəhd göstərən əcnəbilər və vətəndaşlığı olmayan şəxslər ölkənin ərazisinə buraxılmadan gəldikləri ölkəyə geri qaytarılırlar. Saxta və ya başqasına məxsus sənədlərlə dövlət sərhədini keçməyə cəhd göstərən əcnəbilər və vətəndaşlığı olmayan şəxslər qanunla müəyyən olunmuş qaydada məsuliyyətə cəlb edilirlər. Ölkəmizdə olma və yaşamaq hüququ verən sənədlər olmadan ölkəmizə gələrək qanunvericiliyin tələbini kobud şəkildə pozan əcnəbilər və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 575-ci maddəsinə uyğun olaraq inzibati tənbeh tətbiq olunur.

Sadalanan halları əsas götürərək qeyd etmək istərdik ki, əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin ölkəmizə gəlmələri və ölkədən getmələri, Azərbaycan Respublikasında olmaları, yaşamaları və Azərbaycan Respublikasının ərazisindən tranzitlə keçmələri şərtlərinə vəzifəli şəxslər əməl etməli, bu qaydalara qanuna uyğun olaraq riayət etməlidirlər.

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 575.3-cü maddəsinə əsasən Azərbaycan Respublikasında əcnəbiləri və vətəndaşlığı olmayan şəxsləri qəbul edən, onalara xidmət göstərilməsini və ya onların işə qəbul olunmasını təmin edən və onların Azərbaycan Respublikasında olması, yaşaması və ya Azərbaycan Respublikasının ərazisindən tranzitlə keçməsi şərtlərinə əməl edilməsi ilə əlaqədar vəzifələri yerinə yetirən müəssisə, idarə və ya təşkilatların vəzifəli şəxsləri tərəfindən əcnəbilərin və ya vətəndaşlığı olmayan şəxslərin qeydiyyata alınmasının və qeydiyyatdan çıxarılmasının, onlara Azərbaycan Respublikasında olma və ya yaşama hüququ verən sənədlərin rəsmiləşdirilməsinin Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi ilə müəyyən edilmiş

qaydalarının pozulmasına görə vəzifəli şəxslər üç yüz manatdan beş yüz manatadək məbləğdə, hüquqi şəxslər iki min manatdan üç min manatadək məbləğdə cərimə edilir [4, s. 341].

Həmin maddənin müddəasından belə aydın olur ki, yuxarıda sadalanan şərtləri müəssisə, idarə və ya təşkilatların vəzifəli şəxsləri yerinə yetirməli, yerinə yetirmədiyi halda isə həmin şəxslərə cərimə qaydasında inzibati tənbeh tətbiq olunacaqdır. Lakin qeyd etmək lazımdır ki, əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin qeydiyyata alınmasının və qeydiyyatdan çıxarılmasının, onlara Azərbaycan Respublikasında olma və yaşama hüququ verən sənədlərin rəsmiləşdirilməsi, ölkənin ərazisindən tranzitlə keçməsi məsələlərinin icarısını müəssisə, idarə və təşkilatın vəzifəli şəxsləri deyil, müvafiq icra hakimiyyəti orqanları, yəni Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və Dövlət Miqrasiya Xidməti yerinə yetirməlidir. Bu baxımdan, İnzibati Xətalar Məcəlləsinin 575.3-cü maddəsində göstərilən şərtlərin yerinə yetirilməsi səlahiyyəti müvafiq icra hakimiyyəti orqanlarının vəzifəli şəxslərinə aiddir.

Sadalanan müddəaları rəhbər tutaraq belə təklif edirik ki, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 575.3-cü maddəsində “müəssisə, idarə və təşkilatın” sözləri “müvafiq icra hakimiyyəti orqanlarının vəzifəli şəxsləri” sözləri ilə əvəz olunması məqsədə müvafiq hesab edilsin.

Miqrasiya Qanunvericiliyinə əsasən milli təhlükəsizlik və ya ictimai asayişin mühafizəsi, Azərbaycan Respublikasında insan və vətəndaş hüquq və azadlıqlarının qorunması əsas gətirilərək əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasından getməsi hüquqları müvəqqəti məhdudlaşdırıla bilər. Belə ki, Miqrasiya Məcəlləsinin 17-ci maddəsinə əsasən onlar Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinə uyğun olaraq tutularsa və ya barələrində hər hansı qətimkan tədbiri seçilərsə – azad edilənədək; qətimkan tədbirinin müddəti bitənədək və ya qətimkan tədbiri ləğv edilənədək; habelə vergi ödəyicisi vergi öhdəliyini Azərbaycan Respublikasının Vergi

Məcəlləsi ilə müəyyən edilmiş müddətdə yerinə yetirmədikdə, hesablanmış vergilər üzrə borcları və faizləri, tətbiq edilmiş maliyyə sanksiyalarını dövlət büdcəsinə ödəməməsinə görə onların ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması barədə məhkəmənin qanuni qüvvəyə minmiş qərarı olduqda - məhdudlaşdırmanın götürülməsi barədə qərar qəbul edilənədək və s. hallarda Azərbaycan Respublikasından getmələri müvəqqəti məhdudlaşdırıla bilər [3, s. 26-27].

Habelə, Miqrasiya Məcələsinin 17-ci maddəsi ilə həmin şəxslərin vergi ilə bağlı ölkədən gedişinə qoyulan məhdudiyyətləri Vergilər Məcəlləsinin müvafiq maddəsi ilə müqayisə apararaq görürük ki, Vergilər Məcəlləsinin 13.2.3-cü maddəsində bu Məcəllənin məqsədləri üçün anlayışlar istifadə olunmuşdur. Burada fiziki şəxs dedikdə Azərbaycan Respublikasının vətəndaşı, əcnəbi və vətəndaşlığı olmayan şəxs başa düşülür. Göründüyü kimi əcnəbi və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasında vergi ödəyicisinin subyekti kimi çıxış edirlər. Həmin Məcəllə ilə müəyyən edilmiş vergi ödəyiciləri vergi qanunvericiliyinin pozulmasına görə bu Məcəllə, Azərbaycan Respublikasının İnzibati xətalar Məcəlləsi, Azərbaycan Respublikasının Cinayət Məcəlləsi və Azərbaycan Respublikasının digər qanunları ilə müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar və vergi qanunvericiliyinin pozulmasına görə vergi ödəyicilərinə Vergilər Məcəlləsi ilə müəyyən edilmiş maliyyə sanksiyaları və faizlər tətbiq edilir [6, s. 24]. Yəni, Miqrasiya Məcəlləsinin 17-ci maddəsinin müddəasından belə aydın olur ki, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin ölkədən getməsi milli təhlükəsizliyin təmin edilməsi mənafeyinə zidd olarsa, bu əsaslar aradan qalxanadək məhdudlaşdırılmalıdır.

Aparılmış araşdırma ilə belə nəticəyə gəlmək olar ki, Azərbaycan Respublikası Miqrasiya Məcəlləsi və İnzibati Xətalar Məcəlləsinin yuxarıda qeyd edilən maddələri üzrə verdiyimiz təkliflər qəbul edilərsə bu əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasına gəlməsi və Azərbaycan

Respublikasından getməsinin hüquqi əsaslarının düzgün tənzimlənməsinə köməklik etmiş olar.

Beləliklə, bu məqalədə əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə milli qanunvericilik əsasında verilmiş hüquqlara beynəlxalq hüquq normalarına uyğun olaraq hüquqi təminat verilir.

## References


1. Agasiyev R.M. Azerbaycan Respublikasinda Acnebilerin ve vetendashligi olmayan shehslerin huquqi statusu [Legal status of foreigners and stateless persons in Azerbaijan Republic]. Baku, 2018, 364 p.
2. Azerbaycan Respublikasinin Konstitusiyasi [Constitution of Azerbaijan Republic]. Baku, 2017, 92 p.
3. Azerbaycan Respublikasinin Miqrasiya Mecelləsi [Code of Mirgation of Azerbaijan Republic]. Baku, 2018, 62 p.
4. Azerbaycan Respublikasinin İnzibati Xetalar Mecellesi [Code of Administrative Offences of Azerbaijan Republic]. Baku, 2016, 448 p.
5. Azerbaycan Respublikasinin Cinayet Prosessual Mecellesi [Code of Criminal Procedure of Azerbaijan Republic]. Baku, 2018, 790 p.
6. Azerbaycan Respublikasinin Vergi Mecellesi [Tax Code of Azerbaijan Republic]. Baku, 2018, 620 p.
7. “Girish-chixish ve qeydiyyat idarelerarasi avtomatlashdirilmish melumat-axtarish sistemi” haqqinda Azerbaycan Respublikasinin Prezidentinin 22 aprel 2008-ci il tarixli Fermani [Decree of the President of Azerbaijan Republic of April 22, 2008 ‘On Entry - Exit and Interdepartmenal automatic information search system registration’]. [Internet resource]. Available at: http://e-qanun.gov.az/framework/ 14177
8. QuliyevA.I. Huquq Ensiklopediyasi [Juridical Encyclopedia]. Baku, 2007, 1108 p.

9. “Pasportlar” haqqinda Azerbaycan Respublikasinin Qanunu [Law Azerbaijan Republic ‘On Passports’]. As of June 14, 1994. [Internet resource]. Available at: http://www.e-qanun.az/framework/9008

10. Federal’nyi zakon ‘O poryadke vyezda iz Rossiyiskoyi Federatsii i v’yezda v Rossiyiskuyu Federatsiyu’ ot 15.08.1996 N 114-FZ [Federal Law ‘On order of exit from Russian Federation and entry in Russian Federation’ of 15.08.1996 No. 114-FZ]. [Internet resource]. Available at: http://rulaws.ru/laws/Federalnyy-zakon-ot-15.08.1996-N-114-FZ/